# KİMYANIN TƏDRİSİNDƏ MÜƏLLİMLƏRİN TƏŞKİLATI FƏALİYYƏTİ

**A.N. Hümbətova**
*kimya müəllimi*

Orta məktəblərdə tədrisin keyfiyyətini yüksəltməyin yollarından biridə müəllimin təşkilati fəaliyyətidir. Digər fənlərlə yanaşı kimyanın tədrisi zamanı müəllimin təşkilati fəaliyyətinin yüksək olması tədrisin keyfiyyətinə çox böyük təsir göstərir.

Müasir dövrdə qloballaşma prosesinin və inteqrasiya meyillərinin getdikcə sürətləndiyi ictimai- siyasi, sosial, mədəni sahələrdə baş verən mühüm keyfiyyət dəyişiklikləri, şagirdlərin bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir. Hazırki dövrdə məktəbin qarşısında təhsilin keyfiyyətini yüksəltmək kimi məsul bir vəzifə durur. Həyata keçirilən təhsil islahatı təhsil müəssisələrinin fəaliyyətində, bütövlükdə təhsil sisteminin strukturu, idarəsi və iqtisadiyyatında köklü yerdəyişmənin həyata keçirilməsini nəzərdə tutur.

Təbiət fənlərindən olan kimyanın müasir tələblər səviyyəsində tədrisi mühüm vəzifələrdən biri kimi qarşıda durur. Kimya fənni üzrə kurikulumun tətbiqi, təlimi yeni keyfiyyət səviyyəsinə yüksəltməyə nail olacaqdır. Kurikulumda göstərilir ki, kimyanın tədrisi zamanı şagirdlərə bu elmə maraq, riyazi hesablamalar, yeni texniki vasitələrdən istifadə etmək, təbiətdə baş verən hadisələri, maddi aləmdə gedən dəyişiklikləri dərk etmək, həyatda, məişətdə ekoloji problemlərin həllində iştirak etmək bacarığı aşılanmalıdır.

Kimyanın tədrisi prosesində tədqiqatçılıq, analiz və sintez, sistemləşdirmə, ümumiləşdirmə, mühakiməyürütmə, məntiqi düşünmə bacarıqlarının aşılanması diqqət mərkəzində saxlanılır.Öz iş prosesində müəllim səmərəli metodları tətiq etməklə, pedaqoji prosesi zənginləşdirir. Fəal dərsdə yüksək nəticə əldə etmək üçün yeni metodların tətbiqi; yəni,müasir yanaşmalar tətbiq etməklə, kimya həftələrinin keçirməklə, ardıcıl olaraq test tapşırıqlarının keçirilməsi, dərsdə problemli situasiyaların yaradılması, şagirdlərdə şifahi nitq vərdişlərinin formalaşmasına çalışmaq, hər mövzuya aid laboratoriya təcrübələri aparmaq, şagirdləri dərs ilinin əvvəlindən olimpiadalara hazırlamaq, şagirdlərdə müstəqil tapşırıqların yerinə yetirmək bacarığının formalaşdırılmasına nail olmağa çalışmaq və.s. bu kimi məsələləri həll etməklə, uğur qazanılır.

Kimyanın tədrisi prosesində şagirdlərdə elmi dünyagörüşün əsaslarını formalaşdırmaq məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Kimya müəllimləri şagirdlərdə bu məsələni müvəffəqiyyətlə həll etmək üçün Respublikamızın neftayırma, kimya və metallurgiya sənayesinin daha sürətlə inkişaf etdirilməsi,

xalq təsərrüfatının, o, cümlədən kənd təsərrüfatı istehsalatının kimyalaşdırılması, xammal bazalarının artırılması haqqında hökumətimizin sənədlərini, direktiv materiallarını özləri diqqətlə oxuyub, öyrənməli, proqramdakı uyğun mövzuları müəyyənləşdirməli və mövzunun hansı hissəsində həmin materialları şagirdlərə necə çatdırmaq üzərində deşünməlidir. Belə materiallar məktəblilərə dərs zamanı yığcam, dərsdən xaric vaxtlarda- kimyaçılar dərnəyinin məşğələsində, kimya axşamlarında və.s. daha geniş şəkildə şərh olunmalıdır.

Şagirdlərin intellekt qabiliyyətlərini müəyyənləşdirmək müəllimin vəzifəsidir. Hər bir şagirdin hansı qabiliyyətə malik olduğunu, şagirdlərdə intellektin inkişaf etdirilməsi onların qabiliyyətləri ilə bağlılığını müəllim nəzərə almalıdır. Təxəyyül, təfəkkür, intellektin əsasında dayanan qüdrətli bir enerji mənbəyi var: İntuisiya! Müasir təhsil məktəblərinin məqsədi intuisiyası güclü olan intellekt yetişdirməkdir. Tədris pdosesində şagirdlərə hazır, həll olunmuş biliklər verilməsin, onları fəaliyyətə sövq edən, yaradıcılıq axtarışlarına istiqamətləndirən metodlardan istifadə etməklə, öyrəndikləri fənni sevdirmiş oluruq. Kimyanın tədrisi prosesində müəllim bunları xüsusi bir vəzifə kimi həmişə diqqət mərkəzində saxlamalıdır.

Təhsilin keyfiyyəti cəmiyyətin inkişafının əsasını təşkil edən mühüm göstərici kimi bütün zamanlarda dəyərli olmuşdur. Tədris olunan fənnin səmərəliliyini yüksəltmək, öz əməyində yüksək nəticələrə nail olmaq, əldə olunan müsbət nəticələrin praktikada tətbiq etmək və sürətləndirmək müəllimlərin təşkilati vəzifələrindəndir. Bunun üçün kursun keçirilən və öyrənilən mövzularına dair şagirdlərin müstəqil təcrübələr etməsi çox vacibdir. Məşğələ zamanı müəllim şagirdlərin təcrübəni necə etmələrinə diqqət yetirməli və şagird hər hansı bir əməliyyatı düzgün etmədikdə ona dərhal göstəriş verməlidir. Müəllimlərin rəhbərliyi ilə, dərsdə, yeni materialı mənimsəmək məqsədilə şagirdlər qısa müddətli çox da mürəkkəb olmayan laboratoriya təcrübələri edirlərsə, həm dərs keyfiyyətli alınır, həm də şagirdlər üçün çox maraqlı olur və dərsdən aldıqları təəsürat onları sevindirir. Aparılan təcrübələrin dəqiq hazırlanması, göstərilməzdən əvvəl yoxlanması, təcrübələrin təhlil edilməsi, ümumiləşdirilməsi, şagirdlərin fəal iştirakı ilə aparılması, proqram materialının daha əsaslı mənimsənilməsinə və şagirdlərin kimya fənninə olan marağının artmasına, onlarda bir sıra əməli vərdiş və bacarıqların formalaşmasına səbəb olur.

Qabaqcıl təcrübələrin öyrənilməsi, ümumiləşdirilməsi, ən səmərəli olanların seçilməsi, tələb olunan bilik və bacarıqları şagirdlərin əldə etməsinə mane olan halların aşkar edilməsi, təhsil prosesinin müasir, real modelinin hazırlanması, müəllimlərin fəaliyyətini bu modelin tələblərinə uyğun istiqamətdə həyata keçirmək, tədris-təlim işinin ən səmərəli həllinin prinsiplərini müəyyənləşdirmək günün tələbidir.

Müəllim fəaliyyətini, təhsilin müasirləşməsi şəraitində, təkcə sinif otağı ilə

məhdudlaşdırmamalı, cəmiyyətə uyğun daim biliklərin həcmini artırmalı, tədrisin müxtəlif tərəflərini dərk etməli, bu sistemin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin çətinliyini nəzərə almalı, peşəkarlıq səviyyəsinin daim yüksəldilməsinə çalışmalıdır. Təlim metodu elə bir sistemdir ki, o, ardıcıl olaraq tədrisin məzmununu mənimsəməyə aparır. Deməli, təlimin məqsədi, məzmunu, formaları təlim metodunda öz əksini tapır. Bu gün müasir dərsin xarakterik xüsusiyyətlərindən dərsdə müasir təlim metodlarından istifadədir. Aydındır ki, müasir dərs milli təhsilin yaradılmasına yönəlir. Yeniliyin, müasirliyin nədən ibarət olduğuna istinad edərək, müəllimlərimiz öz dərslərində tətbiq edərək müasir dərs və ona verilən tələblərdən istifadə edirlər. Müasir dərs dedikdə, təlim metodlarından ustalıqla istifadə edən müəllimin pedaqoji məharəti nəzərdə tutulur.

Təhsil prosesini elə qurmalıyıq ki, şagirddə özünüinkişaf qabiliyyəti formalaşsın. Yəni,birinci növbədə inkişafedici təlim yaradıcılığı və təfəkkürü formalaşdırmaqla yanaşı,fəallığa, dərketmə qabiliyyətinə əsaslanaraq, məntiqi düşünmə, tənqidi yanaşma, müstəqil qərar çıxarma, bilikləri müstəqil əldə etmək qabiliyyətinə malik olmalıdır. Fənnin tədrisində müəllim sinifdə, sistemli, ardıcıl və məqsədli şəkildə şagirdlərlə əməkdaşlıq edir, tədqiqat məqsədlərinin qoyuluşunda şagirdlərə istiqamət verir, biliklərin əldə edilməsi və mənimsənilməsi yollarını öyrədir. Deməli,müəllimin təşkilati fəaliyyətinə aşağıdakılar aiddir:

- müəllimin nizam- intizam səviyyəsinin yüksək olması;
- müəllimin sinfi ələ alma səviyyəsinin yüksək olması;
- müəllimin obyektivliyi, şagirdlər arasında ayrı- seçkiliyə yol verməməsi;
- şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalı, onlarla ünsiyyəti düzgün qurmalıdır;
- müəllim- şagird, şagird- şagird əməkdaşlığını yaratmalıdır;
- şagirdlərdə azad fikirlik, müstəqillik vərdişlərinin yaradılması səviyyəsinin yüksək olması;
- müəllimin dərs prosesində şagirdlərə fərdi yanaşma səviyyəsinin yüksək olması;
- müəllimin tədris prosesində yaranmış problemi situasiyaları məharətlə həll edə bilmə qabiliyyətinin yüksək olması;
- dərsin planlaşdırılması səviyyəsinin yüksək olması;
- dərsdə əsas psixoloji tələblərin həyata keçirilməsi;
- dərsdə vaxtdan səmərəli istifadə;
- müəllimin pedaqoji mədəniyyəti, zahiri görünüşü;
- müəllimin nitqinin aydınlığı, sürəti, tələffüzü, obrazlılığı, emosionallığı və.s.
- dərsdə şagirdlərlə səmərəli əks əlaqənin təmin olunması, əməkdaşlıq şəraitinin yaradılması;

- dərsdə əməyin mühafizəsi, təhlükəsizlik texnikasının və gigiyenik tələblərin gözlənilməsi.

Bu gün məktəblərdə müəllimlərimiz dərslərini fəal təlim metod və formaları ilə qurmaqla yüksək nəticələr əldə edirlər. Fəal təlim metodlarının tətbiqi müəllimin təşkilati fəaliyyətindən asılıdır. Fəal (interaktiv) təlim tədrisin və idrak fəaliyyətinin təşkili, idarə olunması metodlarının məcmusudur. Asan başa düşülən,yadda qalan, vacib təlim materialının öyrənilməsində, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı şagirdlər müəllimin rəhbərliyi altında öyrənirlər.

Müəllim dərsə hazırlaşarkən tətbiq edəcəyi metod, iş formasını birlikdə götürür, çalışır ki, onlar bir- birini tamamlasın. Bunun üçün müəllim dərslərində tətbiq edəcəyi fəal təlim metodlarını bilməli və onun tətbiqini bacarmalıdır. Müstəqil fəaliyyət göstərən, yaradıcı olan şagirdlərə müəllim lazımi köməklik göstərməli, bələdçi olmalı, görülən işləri obyektiv qiymətləndirilməlidir. Həlli nəzərdə tutulan bütün məsələlər aktual olmalı, şagirdin yaradıcı fəaliyyətini inkişaf etdirməli və elmiliyi ilə seçilməlidir.

Fəal dərsin xüsusiyyətlərinə aid olan məsələlər, yəni, dərsi başlayarkən müəllim problemi qoyub şagirdləri problemin həllinə yönəldir; müəllim şagirdlərlə fikir mübadiləsi aparmaqla, şagirdlərlə əks əlaqə yaradır; qoyulmuş təlim problemini birgə, qarşılıqlı fəaliyyət əsasında həll etməyə çalışır, əməkdaşlıq edir; biliklərin müstəqil kəşfi və mənimsəniməsi üçün müəllim lazımi şərait yaradır; məlumatla təmin edir, təşkilati dəstək verir; şagirdlərin fəal dərketmə mövqeyinin bütün dərs boyu saxlanılması üçün müəllim təfəkkürünün formalaşmasına əsaslanır; suallar və tapşırıqlar müxtəlif təfəkkür (məntiqi, tənqidi, yaradıcı) növlərinə aid olur; biliklərin praktiki və yaradıcı tətbiqi üçün müəllim tapşırıqlar verir; şagirdlərin sərbəst və müstəqil fikir yürütməsi üçün müəllim şərait yaradır; müəllim şagirdlərə hörmətlə yanaşır və şagirdlərin öz aralarında da qarşılıqlı hörmət münasibətlərini dəstəkləyir; təlimin müxtəlif metod və vasitələrindən, digər məlumat mənbələrindən istifadə olunur; təlim fəaliyyətinin təşkili üçün səmərəli vasitələrdən (təlim mühitinin təşkili, kəmiyyət və keyfiyyətin qiymətləndirilməsinin müxtəlif formaları) istifadə edilir. Nəhayət öyrədici mühit elə qurulmalıdır ki, tədrisin real həyatla əlaqəsi başa düşülsün, şagirdlər müxtəlif informasiya mənbələrindən istifadə edə bilsin, müstəqil şəkildə bilik ehtiyatını artıra bilsin.

Təlimin keyfiyyətinə və şagirdlərin yaradıcı fəaliyyətinə müsbət təsir göstərən, yaradıcı təfəkkürün inkişafına xidmət edən metodlardan prinsiplər əsasında istifadə edilməsidir. Müəllimin şagirdlərə hörməti, onları olduğu kimi qəbul etməsi və daim dəstəkləmək meyli, bacarıqlarına inandığını göstərməsi bunların hamısı şagirdlərdə belə bir inamı möhkəmləndirə bilər ki, qarşıya qoyulmuş problemin həllində onların istənilən cəhdi yaradıcı fikir kimi

qiymətləndirilərək, hörmətlə yanaşılacaqdır.

Biliklərin mənimsənilməsinin əsas meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun əhəmiyyətini şagirdə açıb göstərir. Ona görə də müəllim şagirdlərə imkan daxilində şərait yaratmalıdır ki, onlar müəyyən məsələlərin həlli üçün, qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar. Sonda isə şagirdlərə, onların kəşf etdikləri elmi biliklərin yaradıcı surətdə tətbiqinə dair çalışmalar verilsin ki, bu da həmin elmi biliklərin həmişəlik onların şüurunda kök salmasına səbəb olur. Bu mərhələnin sonrakı tədris proseslərində də həyata keçirilməsini davam etdirməklə, müsbət nəticələr əldə etmək mümkündür.

Fəaliyyət- insanın dərk olunmuş məqsədi ilə tənzim edilən daxili və xarici fəallığıdır. Təcrübə göstərir ki, hər bir fəaliyyətdə yaradıcılıq tələb olunur. Ona görə də, kimya müəllimləri öz dərslərinin düzgün təşkil edilib keçirilməsi, həyatla, istehsalatla,ölkədə gedən quruculuq işləri praktikası ilə əlaqələndirilməsi və bu vasitələrlə şagirdlərə yaxşı mənimsənilməsi, əməli əhəmiyyəti olan bacarıq və vərdişlər aşılanması, gənclərdə möhkəm əqidə və inamın yaradılması və milli iftixar hissinin tərbiyə edilməsi üsulu təşkil edir.

Fəal və yaradıcı olmaq, şəraitdən tez baş çıxarmaq, təşəbbüs göstərmək, müstəqil olaraq yeni məsələlər qarşıya qoymaq və qərar qəbul etməyi bacarmaq mühüm məsələlərdən biridir. Öz fəaliyyətini planlaşdırma vərdişləri və daxili nizam-intizam, vaxt məhdudiyyəti problemini, təşkilatçılıq fəaliyyəti həll etməkdə kömək edə bilər.

Ona görə də müasir tələblərə cavab vermək üçün müəllim öz fəaliyyətini fənn otağı ilə məhdudlaşdırmamalıdır. Hər birimiz tədris etdiyimiz fənnin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin çətinliyini nəzərə almalı və peşəkarlıq səviyyəsinin fasiləsiz yüksəldilməsinə daim çalışmalıdır. Biz müxtəlif mədəniyyətlərin mövcudluğu şəraitində yaşayırıq. Bizim milli dəyərlərimizin, milli mənliyimizin formalaşmasında öz mədəni keçmişimizin dərk olunması vacibliyini müəllim öz şagirdlərinə aşılamalıdır. Bu cür keyfiyyət və xüsusiyyətlərə malik, yeni, müair, dinamik pedaqoji fəaliyyət şəraitində yaradıcı işləmək, tədris etdiyi fənni yüksək səviyyədə bilmək qabiliyyətinə malik müəllimlərin varlığı cəmiyyət üçün əvəzsiz varlıqdır.

Müasir tələblərdən sayılan, tədris prosesində şagirdin fəal iştirakını təmin edən müəllimin işi bələdçi və istiqamətverici xarakterə malik olmasıdır. Müəllim bütün qərarları özü verməməli, müəyyən məsələləri şagirdlərin mühakiməsinə buraxmalıdır. Bu istiqamətdə qazanılan biliklər şagirdlərin yaddaşında uzun müddət qalır, onlar həmin bilikləri praktikada tətbiq etməklə uğurlu nəticələr əldə edirlər. Bu da müəllimin təşkilati fəaliyyətindən irəli gəlir.

Müəllim əgər öz ixtisasını kamil bilmirsə, maddi- texniki baza nə qədər

güclü olsa da, təhsildə uğur qazanmaq mümkün deyil. Bu gün Respublikamızın təhsil sahəsindəki uğurları məktəblərdə çalışan, öz işinin kamil ustası olan yüzlərlə müəllimin zəhmətinin bəhrəsidir. Respublikamızda böyük təcrübəyə malik, öz biliyini şagirdlərdən əsirgəməyən müəllimlər çalışır.

Müasir dövrdə şagirdlər çoxlu sayda informasiyalar əhatəsindədirlər. Öz fəaliyyətində müəlim bütün bunları nəzərə almaqla, şagirdlərə düzgün informasiya verməyi bacarmalı, şagirdlərə möhkəm təlim vərdişləri aşılamalı və hər bir yenilik pedaqoji eksperimentlə yoxlanılıb tətbiq edilməlidir.

Təhsilin inkişafını təmin edən əsas sahələr həmişə diqqət mərkəzində olmalıdır. Belə ki, təlimin keyfiyyətini yüksəltməyə xidmət edən keyfiyyət reytinqlərində yaranmış çatışmazlığın aradan qaldırılması; tədris üsullarının geniş tətbiqi; müasir təlim metodlarının daha səmərəli üsullarının tətbiqi; məktəblərə elmi- texniki köməyin səviyyəsini artırmaqla, müəllimlərin bu sahədə pedaqoji bacarığının yüksəldilməsi; tədbirlər və olimpiadalar keçirməklə şagirdlərin istedadını aşkara çıxarmaq üçün obyektivliyin gözlənilməsi; kadr potensialından düzgün istifadənin təşkili; şagirdlərin dərsliklə təminatını təmin etmək; şagird biliyinin qiymətləndirilməsində obyektivliyin gözlənilməsi; tədris müəssisələrini ixtisaslı kadrlarla təmin etmək; müəllim əməyini obyektiv qiymətləndirməklə onları həvəsləndirmək və. s.

Kimya fənninin tədrisinə müəllimin şifahi nitqi, müəllimin sxem, cədvəl, model, stend və.s. üzərində izahı, şagirdlərin kitab üzərində işi, formul və kimyəvi tənlik düzəltmək üzərində çalışmalar yerinə yetirməsi, təcrübələr aparmaları, müxtəlif hesablama məsələləri həll etmələri daxil edilə bilər. Yuxarıda qeyd olunanlar, təhsilimizin inkişafını təmin etməklə yüksək nəticələrin əldə edilməsində böyük rol oynayır. Nəticədə, müəllim kimyanın tədrisi prosesində yeni metod və vasitələrdən düzgün istifadə etməklə, fəal dərsi ümumi, sistemli şəkildə yuxarıda qeyd edilmiş məqsədə, yəni şagirdlərə tam, konkret, dərin, aydın, dəqiq, sistemli möhkəm və həqiqi bilik vermək məqsədinə nail ola bilər.

Beləliklə,cəmiyyətimizin gələcək qurucuları olan şagirdlərin dərketmə qabiliyyətini inkişaf etdirmək, əldə edilmiş bilikləri praktikaya tətbiq etmək bacarığını aşılamaq müəllimlərimizin əsas vəzifilərindən biridir.

## İstifadə edilmiş ədəbiyyat:


1. Veysova Z. Fəal İnteraktiv yəlim. 2007- ci il. UNİCEF.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı. Kimya məktəbdə. Elmi-nəzəri və metodik məcmuə. 2011.
3. Pedaqoji Universitetin Xəbərləri. Bakı- №-1.2013- il.
4. P.J. Əliyev.Kimya tədrisi üsulunun ümumi məsələləri. Bakı. 1987- il.
5. Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı. Azərbaycan müəllimi. 8 sentyabr 2006- cı il.

*А.Н. Гумбатова*

**Организационные дейтельности учителей в преподавании химии**

**АННОТАЦИЯ**

Урок является зеркалом общей и педагогической культуры, показателем его интеллектуального богатства, уровня знания и мировоззрения (30 апреля 2009- го года Образование и время). Сила речи- это умение сказать многое в немногих словах (Рлутарх).

*A.N. Humbatova*

**The organization activity of theachers in the theaching of chemistry**

**ANNOTATION**

Lesson is a mirror of general and pedagogical culture of the teacher, indicator of her intellectual richness, knowledge level and worldwide. (April 30, 2009. Education and Time) The power of speech is ability to say a lot with little words. (Plutarx).

**Açar sözlər:** fəaliyyət, tədris prosesi, fəal- interaktiv təlim, dərsin təşkili və idarə olunması, yaradıcı təfəkkür, praktiki təcrübə

**Ключевые слова:** деятельность, процесс преподавание, активно- интерактивные методы, организация и ведение урока, творческий разум, практический опыт

**Key words:** activity, teaching process, active-interactive training, organization and management of the lesson, creative ming, practical experience